Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

# Ulu Öndər haqqında fikirlərim



**Ulu Öndər haqqında söz demək, fikir söyləmək, onun siyasətinə qiymət vermək üçün, onun haqqında fəlsəfi, siyasi fikirlər səsləndirmək üçün onu dərindən öyrənib dərk edib sonra fəlsəfi fikir bildirmək olar.**

Mən də müdrik rəhbərimizin siyasi fəaliyyətinin, müasir, müstəqil dövlətçilik tariximizdə xidmətlərinin təbliğatçısı, onun şəxsiyyətinin fərdi xüsusiyyətlərini dərindən bilən vətəndaş olaraq, mətbuat nümayəndəsi kimi onun barəsində bəzi ifadələrimi, fikirlərimi qeyd etmək istərdim.

Faciələrimizin çoxu onun hakimiyyətdə olmadığı illərdə baş vermişdir.

O, iti sürətlə düşünür və dəqiq fikir qənaətinə gəlirdi.

Heydər Əliyevin əvəzinə Heydər Əliyev olmaq istəyənlər Tanrının və xalqın qəzəbinə gəldi.

Heydər Əliyevin Bakıya qayıdışı ümumxalq dəvətinə əməldən doğan saygı idi.

Heydər Əliyev çoxdur və yeniləri də doğulacaqdır, amma ikinci Heydər Əliyev bir daha dünyaya gəlməyəcəkdir. Çünki birincisi elə əbədiyaşardı, bənzərsiz dünyəvi siyasi xadim olaraq XX əsrin ikinci yarısından başlayaraq XXI əsr müasir, müstəqil dövlətçilik tariximizə əbədi daxil olub.

Heydər Əliyevin kəlamlarında onun ürəyi danışır.

O, özünəməxsus üstün keyfiyyətləri ilə insanın nələrə qadir olduğunu göstərdi.

Böyük siyasət olan yerdə, böyük dahi Heydər Əliyev vardır.

Onun nəzəriyyələri həyat təcrübəsindən, həyat təcrübəsi nəzəriyyələrindən, siyasətindən ayrılmazdır.

Daş həkk edilmiş yazını necə etibarlı saxlayırsa, yaddaşı da Ona eləcə sadiq olub.

**O, müstəsna insan olduğundan zövqü də müstəsna olub. Və onun ən müxtəlif zövqləri içərisində ən üstünlük verdiyi dövlətçilik zövqüdür. O, bir dövlət memarıdır, qurucusudur.**

Hər bir şəxsiyyət öz zəmanəsinin və öz cəmiyyətinin əsəri olduğundan, Heydər Əliyev haqqında yazmaq, eyni zamanda dövrün tarixini, cəmiyyətin düşüncə tərzini qələmə almaqdır. Tanrının öz bəndəsi haqqında daha çox düşündüyü kimi Ulu öndər də ölkəsi, dövləti, cəmiyyəti haqqında hər bir vətəndaşdan daha çox düşünürdü.

O, cəmiyyətdə ən güclü zehni enerjiyə malik olmuş nadir şəxsiyyətdir. Heydər Əliyevin örnək xarakterik keyfiyyətlərindən biri də qabiliyyətlərinə özünəxas istiqamət verməsidir.

Ulu öndər haqqında rəğbətlə düşünməyin ən kəsə yolu 1993-cü ildə Azərbaycanın parçalanmalarının dayandırılmasını xatırlamaqdır. Heydər Əliyev özünü özündən istismar edib xalqa vermiş müstəsnadır. Bu, əsl mənada özünü xalqa, vətənə həsr etməkdir.

Uşaq valideynin, tələbə ustadının əlindən tutub yeridiyi kimi, xalq da Tanrının ətəklərindən və rəhbərin əlindən tutaraq gələcəyə doğru addımlamalıdır.

Heydər Əliyevə qarşı zaman-zaman istiqamətlənən əzablar və hücumlar nə qədər çox olsa da, onun səbrinə qalib gələ bilməmişdir.

Rəhbəri ucaldan xalq, xalqı ucaldan isə rəhbərdir. Onları qoruyan isə Tanrı.

Heydər Əliyev 1993-cü ildə dövləti separatizmin quduz dişlərində çeynənməkdən hifz elədi.

"Dövlət qələm və qılıncla vardır" deyiblər. Qələm Qurtuluş dahisinin diplomatiyası - qılınc isə qətiyyətidir.

**Heydər Əliyev sülh siyasəti ilə Azərbaycanı sülhsevər bir ölkə kimi xaricdə tanıtdırdı. Bütün vətəndaşların borcu isə daxilən təmizlənib-saflanıb ölkə daxilində özünü Azərbaycana layiq insan kimi tanıtmaqdır. Ulu öndər Heydər Əliyevin həyat və mübarizə yolunu öyrənmək beynəlxalq münasibətlər institutunu əla qiymətlərlə bitirmək kimi bir şeydir və bəlkə də artıq. Tanrı kainatda hər şeyi görən və biləndir, hər şey ona əyandır. Cəmiyyətimizdə isə ən çox görən və bilən müdrik rəhbərdir. Bununla belə bir çox mətləbləri üzə vurmamaq, onun səbrindən və böyüklüyündəndir. Bunları insanların bilib, dəyərləndirmələri fəzilət, bilməmək cəhalət, bilib nəzərə almamaq isə qəbahətdir. Çünki Azərbaycanın parçalanmasının qarşısını alan şəxsiyyəti unutmaq Azərbaycanı parçalamaq niyyətində olanlarla ruhən həmrəy olmağa yaxın mövqedir və ya ən azı yaddaşsızlıqdır.**

Heydər Əliyevin ən azı 50 illik informasiya yığma təcrübəsi var idi. O, çoxlarının qüsurunu və gizlinlərini bilirdi. Cəmaləddin Rumi gözəl deyib: "Başqalarının eyblərini örtməkdə gecə kimi ol". Heydər Əliyevin qəlbində əzəldən bir ziya olmuşdur. Və bu ziya onun daxili aləmini nurlandıraraq, yollarını da aydınlatmışdır. Ona görə də gəncliyindən üzü bəri qaranlıqları yara-yara gəlmiş, işıqlı fikirlər söyləmişdir. Sıravi vətəndaşın büdrəməsinin əzabı həm fərdidir, həm də adi. Rəhbərin büdrəməsi isə xalqın büdrəməsi kimidir. 1988-1993-cü illər arası 5 ildə Azərbaycan üç dəfə büdrədi. Ümummilli lider Heydər Əliyev gələcək ümummilli strategiyanın möhtəşəm planların ən mahir ustadıdır. Heydər Əliyev dövlətçilik naminə hərbi müxalifəti ləğv etməklə həm qüdrətini göstərdi, həm də AXC hakimiyyətinin səhvini islah etdi. Heydər Əliyev Azərbaycanda dahilərin-alimlərin ev muzeylərinin açılması ənənəsinin müəllifidir. Müstəsnalarla bəslənilən sevgilər də müstəsnadır. Başqa sözlə, hərə öz böyüklüyü qədər xalqın ürəyində sevgi doğurur.

Heydər Əliyev ictimai şüuru idarə edən yeganə və ən mahir siyasi sükançısı olub. Onun bir neçə kəlmə sözü bütün xalqı hərəkətə gətirmək qüdrətinə malikdir.

"Əsrin müqaviləsi" Heydər Əliyevin müəllifliyi ilə yazılan siyasi-iqtisadi sənət əsəridir. Bu əsər zaman-zaman Azərbaycana stolüstü "kitabı" olaraq qalacaqdır.

Siyasət həyata keçirilməsi mümkün olan və olmayan məqsədlər-imkanlar haqqında elmdirsə, Heydər Əliyev Azərbaycan üçün nə mümkündürsə edib və onun siyasəti əbədidir.

Rəhbər xalqın, xalq da rəhbərin uman və güman yeri olmalıdır.

Heydər Əliyevin ən sadiq silahdaşı onun xarakteri olub.

Heydər Əliyev ucalığı Azərbaycanın siyasi fikir tarixində bəlkə də heç zaman fəth edilməyəcək ən yüksək zirvə olaraq qalacaqdır.

Heydər Əliyevin bütövlüyündə üç əsas fikir qovuşub: Tanrının kəraməti, xalqın məhəbbəti və şəxsi qətiyyəti.

**XXI əsrdə Heydər Əliyev irsini mükəmməl mənimsəyənlərdən yalnız və yalnız İlham Əliyev XXI əsrdə onun siyasətini davam etdirən siyasi xadim olaraq tariximizə daxil olub. Başqa heç kəs nəinki onun qədər heç orta səviyyəli siyasətçi ola bilməz.**

Neft Azərbaycanın iqtisadi, Heydər Əliyev isə siyasi sərvətidir. İşıq zülmətdən doğulan kimi Heydər Əliyev hakimiyyətə xalqın ən qara günlərində gəldi.

Çeçen-rus savaşının durdurulmasında Heydər Əliyevin neft siyasətinin böyük təsiri oldu. Və təsadüfü deyil ki, çeçenlər onu "Qafqazın atası" , "Qafqazın Prezidenti" adlandırdılar.

Hakimiyyət-Heydər Əliyev üçün məqsəd deyildi, ümummilli ideyalarını gerçəkləşdirmək üçün vasitə idi. Azərbaycanımızın taleyi onun taleyi ilə sıx bağlıdı və əksinə. Onun haqqında biri var sadəcə xoş sözlər yazmaq, demək, biri də var cəmiyyətdə Ona qarşı dərk edilmiş saf sevgi aşılamaqdır. Ölkə rəhbəri şübhəsiz ki, bayağı hüsn-rəğbətə möhtac deyil. Xalis, əsaslandırılmış sevgiyə isə nəinki hər bir insanın, hətta ən azı bəndəsini imanlı görmək baxımından Allahın da ehtiyacı var. "Allah hər kəsə onun qəlbundən baxar" və dərk edilmiş sevgini qəbul edərdi.

Ulu Öndərin mübariz xarakterindəki müstəsna keyfiyyətləri dərin təhlillə önə çəkmək, onun varlığının geniş anlamda dərkinə daha çox xidmət edir. Heydər Əliyevin xarakterindəki müstəsna keyfiyyətlər əsl fenomenal şəxsiyyət atributlarındandır.

Heydər Əliyev Azərbaycan xalqının təbiətində gizlənən ən mənfur xislətləri üzə çıxaran yanılmaz aşkarçıdır. Azərbaycan xalqının varlığı ərzində heç kim onu bu qədər özünə tanıda bilməmişdir.



Heydər Əliyev həm güclü məntiqçidir, -həm natiq, həm tarixçidir - həm ədəbiyyatçı, həm sosioloqdur - həm psixoloq, həm filosofdur - həm də böyük siyasi xadimdir. Və mübaliğəsiz belə düşünmək olar ki, bu böyük insan onlarca dahinin malik olduğu ən müstəsna üstünlükləri özündə birləşdirən qeyri-adi varlıqdır. Heydər Əliyev əsrlərin yeni siyasət elminin banisidir. Azərbaycanın gələcəyi yalnız və yalnız onun tükənməz irsini öyrənməkdə və düzgün nəticə çıxarmaqdadır.

Heydər Əliyev siyasəti Azərbaycanın rəsmi ideologiyasıdır.

**Heydər Əliyevin Azərbaycanda ucaltdığı abidələr - möhtəşəm saraylar həm də onun xarakterindəki keyfiyyətlərin tərənnümüdür. Onun elmə və elm adamlarına göstərdiyi qayğı və münasibət peyğəmbərimizin "Qəbr evinə kimi oxumaq!" kəlamının çağdaş və əməli deyimi kimidir.**

Heydər Əliyevdən öyrənmək, sadəcə bir öyrənmək deyil, şüurun dərinliklərindəki qatlara təsir göstərib, onları aça-aça dərk etmənin zənginliklərinə doğru irəliləmək deməkdir.

Müstəsnaların alternativi olmuş olsaydı, onlar müstəsna olmazdılar. Heydər Əliyevin mübarizəsinin xarakterini dərin mühiyyəti ilə geniş anlamda onun özündən başqa heç kəs açıb göstərməyə qadir olmamışdır.

Heydər Əliyev təqaüddən prezidentliyə doğru beş il əzablı bir yol keçmişdir.

Həyat təcrübəsi Heydər Əliyevə ən çıxılmaz sayıla biləcək vəziyyətlərdən çıxış yolu tapmağı öyrətmişdir. Bu fiziki və ruhi sağlamlığın vəhdətindən doğmaqla, ağlın müstəsna səfərbərliyə vərdiş qabiliyyətidir. Bütün çətin və müşkül dolanbaclardan çıxaran bu qabuliyyət isə öz impulslarını məğlubiyyətlə qətiyyən razılaşmamaqdan alır. 1993-cü ildə Heydər Əliyevin hakimiyyətin yüksək pilləsinə dönüşü göstərdi ki, siyasət həvəskarlığı deyil, daha çox professionallığı sevir. Çünki professionallar siyasətə həvəskarlardan daha çox bağlı olurlar.

Ulu öndərin kəlamları daşıdığı dərin siyasi məzmununa və mahiyyətinə görə öz canlılığını daima hifz edib saxlayacaqdır. Onun nitqində tarixi yaddaş və təfəkkür, siyasi reallıq və uzaqgörüm vəhdətdədir. Bu bütövlük isə öyrədicidir.

Heydər Əliyev neft amilini ümumdünya diqqət mərkəzinə çəkərək, beynəlxalq münasibətlərdə daha fəal rol oynamağa başladı. Bununla o, Rusiyanın Qafqazda, xüsusən Azərbaycanda çılğınlığının ram edilməsinə xeyli nail oldu. Böyük siyasətçi Ermənistana da öz iddialarından əl çəkməyə məcbur etməyə yönəldilən siyasi-iqtisadi strategiya aparməşdı. Bu mənada Heydər Əliyev kursu Azərbaycana münasibətlərdə ziddiyyətlərin -düyünlərin çözülməsi nöqteyi nəzərindən bölgədə sağlam düşüncə prinsipinə çağırışdır və o, bu çağırışı boş sözlə deyil, bağladığı çoxsaylı müqavilələrlə əlidolu edir.

Heydər Əliyevin düşüncə gücü və ruhu daima yaradıcı vəziyyətdə olduğundan qətiyyətlə demək olar ki, o, heç vaxt ruhdan düşməmişdir. Bunu 1987-ci ildən "Atdan düşüb, atlanması da" sübut etdi.

Ulu öndərə bəslənilən fərdi rəğbətlər ümumxalq sevgisinin tərkib hissəsidir.

İqtidarda olan insafsız rüşvətxorlar müəyyən mənada onun əleyhdarlarının müttəfiqləri kimi görünürdülər.

**Natiqlik prezident üçün həm də milyonları inandırma sənətidir. Çıxışlarının birində Ulu öndər təəssüflə bildirmişdi ki, yaxşılıq etdiyi adamların 95%-i ona arxa çevirdi. Doğrudan-doğruya əsl sədaqətli adamların sayı qiymətli daş-qaş kimi çox ola bilməz.**

**Dəmir QURBANLI**